***Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurasının***

***04 oktyabr 2016-cı il tarixdə keçirilmiş iclasın protokolundan çıxarış***

---

*04 oktyabr 2016-cı il tarixdə Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurasının sədri Rauf Pənahovun sədrliyi ilə növbəti iclas keçirilmişdir.*

*İclasda Apellyasiya Şurasının üzvləri Rasim Quliyev, Zülfəli İsmayılov, Sani Nəsibov, Namiq Məmmədov, Katibliyin rəhbəri Zaur Ramazanov və Katibliyin üzvləri Kamilə Ağalarova, İlqar Əliyev, Ramil Qədimquliyev və Günel Məmmədova iştirak edirdilər.*

***<u>İclasda baxılmış və müzakirə olunmuş məsələlər:</u>***

*1. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, cənab Ramiz Mehdiyevin imzası ilə daxil olan 2/270 nömrəli, 30.09.2016-cı il tarixli məktubu;*

*2. "POSTER" reklam şirkətinin müraciətinə Apellyasiya Şurasında baxılması;*

*3. "Aydınlıq-R" şirkətinin mürəciətinə Apellyasiya Şurasında baxılması;*

*4. "R.A.N." kiçik müəssisəsinin müraciətinə Apellyasiya Şurasında baxılması.*

***Bu məsələlərlə bağlı ətraflı müzakirələr aparılmış, çıxışlar dinlənilmiş və yekunda <u>qərara alındı:</u>***

*1. Azərbaycan Respublikası Prezidenti Adminitrasiyasının rəhbəri cənab Ramiz Mehdiyevin 2/270 nömrəli, 30.09.2016-cı il tarixli məktubu ilə tanış olmaq üçün Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində olan təşkilatlara göndərilsin.*

*2. "POSTER" MMC-nin baş direktoru Yusif Hacıyevə cavab məktubu göndərilsin.*

*3. "Aydınlıq-R" şirkətinə torpaq və ya kompensasiya vermək Bakı Şəhər İcra Hakimiyyətinin imkanları xaricində olduğu bildirilməli, Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurasının bu məsələ ilə bağlı izahlı məktubu vətəndaş Rauf Məmmədzadəyə göndərilsin.*

*4. Bakı Şəhər İcra Hakimiyyəti Memarlıq və Şəhərsalma Baş İdarəsinin Şəhər ərazisinin tikinti-planlaşdırma idarəsinin rəis əvəzi İlqar Əliyev "R.A.N" kiçik müəssisəsinə təklif etmək üçün boş torpaq ərazisi olan yerlərə baxıb təkliflərini Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurasına təqdim etsin. Torpaq sahəsi tapılıb təkliflər veriləndən sonra bu məsələnin müzakirəsinə bir daha qayıdılsın.*